# M.Ə.Sabir müstəqillik dövrünün ədəbi-nəzəri fikrində

## *(Professor Təyyar Salamoğlunun tədqiqatları əsasında)*



*Yədulla DADAŞLI,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent*

İyirminci yüzilin son onilliyində Azərbaycan xalqının ikinci dəfə milli müstəqillik qazanması və öz inkişafının yeni mərhələsinə qədəm qoyması sosial-siyasi həyatda əsaslı dəyişikliklər, inqilabi çevrilişlər yaratdığı kimi, ədəbi və mədəni müstəvidə də fundamental yeniliklərin meydana gəlməsi ilə sonuclandı. Son otuz ildə milli ədəbi prosesin milli düşüncə işığında irəliləməsinə, ədəbi-nəzəri və estetik fikrin milli ruhda inkişafına, bədii və elmi sənət həqiqətlərinin öz həqiqi dəyərini almasına geniş imkanlar yaratdı. Milli ədəbiyyatımızın inkişafına geniş imkanlar yarandığı çağdaş dövrümüzdə Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığının milli təfəkkür müstəvisində yenidən tədqiq olunmasına qayğı və diqqətlə yanaşılması, onların əsərlərinin dəfələrlə nəşr olunub ədəbi ictimaiyyətə və geniş oxucu kütləsinə çatdırılması həyatın ədəbiyyatımızın qarşısına qoyduğu tale yüklü məsələlərdəndir. Düzdür, sovet siyasi rejimi dövründə də klassik Azərbaycan şair və yazıçıları, dramaturq və publisistləri haqqında xeyli sayda tədqiqatlar, araşdırmalar aparılmış, elmi əsərlər yazılmış, onların ədəbiyyat tariximizdəki xidmətləri dəyərləndirilmişdir. Lakin bu araşdırmalarda, monoqrafik aspektdə aparılan tədqiqatlarda sovet rejiminin ədəbiyyat qarşısına qoyduğu siyasi tələblərdən irəli gələn ideoloji yanaşmalar üstünlük qazanmış, ədəbi şəxsiyyətin həqiqi elmi dəyərini almasına maneələr törətmiş, klassik sənətkar ideoloji qiymətləndirmənin qurbanına çevrilmişdir. Hətta iş o yerə gəlib çatmışdır ki, millətimizin qeyrətini, ədəbiyyatımızın təəssübünü çəkən bəzi yazıçılara "xalq düşməni" damğası vurulmuş, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Ağaoğlu kimi qüdrətli vətən xadimləri qürbətdə yaşayıb-yaratmaq məcburiyyətində qalmış, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı kimi vətəndaş ədiblər aşağılanaraq "cığırdaş" adlandırılmışdır. Sovet dövrünü görməyən, bu rejimdə yaşamayan, lakin vətənin və millətin qeyrətini çəkən Mirzə Ələkbər Sabir kimi vətənpərvər şairə sovet dövrünün bəzi Azərbaycan ədəbiyyatşünasları ideoloji meyarlarla yanaşmış, onun satiralarını siyasi motivlər çərçivəsində araşdırmış, hətta onu sosialist realizminin astanasına yaxınlaşan bir şair adlandırmaqla yanlış elmi mülahizələr irəli sürmüş, metodoloji yanılmalara yol vermişlər. Artıq müstəqillik dövrünün ədəbiyyatımızın qarşısına qoyduğu mühüm vəzifələrin həyata keçirilməsinin, reallığa çevrilməsinin son dərəcə önəmli olduğunu qərarlaşdıran filoloq alimlərimiz klassiq ədəbi irsin, o cümlədən M.Ə.Sabir yaradıcılığının estetik meyarlarla dəyərləndirilməsi istiqamətində xeyli faydalı işlər görmüş, böyük əmək sərf etmişlər. Qeyd etmək lazımdır ki, M.Ə.Sabirin anadan olmasının 150 illiyi (2012) və 160 illiyi (2022) ilə əlaqədar olaraq, Respublikada elmi-praktik konfranslar keçirilmiş, bu konfranslarda çıxışlar edən onlarla alimlərin məqalələri işıq üzü görmüşdür. Şairin "Hophopnamə"si 2003 və 2004-cü illərdə Bakıda, 2012-ci ildə Türkiyənin İstanbul şəhərində görkəmli türk alimi Y.Akpınar tərəfindən çap olunmuşdur. Sabirin ardıcıl tədqiqatçılarından biri olan professor Alxan Bayramoğlu ilk dəfə şairin elmi bioqrafiyasını yazmış, "Mirzə Ələkbər Sabir"(həyatı və əsərləri ,2003), "Bənzərəm bir qocaman dağa ki ..." (2010) əsərlərində, Əbdülvahab Yurdsevər "Sabirin Azərbaycan ədəbiyyatında yeri" (2014) monoqrafiyasında dahi şairin ədəbi irsini müasirlik baxımından elmi tədqiqata çəkmiş, həqiqi qiymətini verməyə çalışmışdır. Hələ ömrünün gənclik illərindən M.Ə.Sabirin əsərlərini sevə-sevə oxuyan, Sabir sənətinin vurğunu olan, Sabir poeziyasının ecazkar qüdrətini, şairin vətəndaşlıq amalını, estetik qayəsini, milli və bəşəri idealını yüksək dəyərləndirən Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Təyyar Salamoğlu çox keçmir ki, Sabirin ardıcıl və geniş erudisiyalı tədqiqatçısına çevrilir. T.Salamoğlunun müstəqillk dövründə apardığı tədqiqatlarda sabirşünaslıq yeni bir keyfiyyət mərhələsinə daxil olmaqla yanaşı, ideoloji yanaşmadan uzaqlaşaraq estetiklik yönümündə öz inkişafını həyata keçirir. Sabirşünaslığın aktual problemlərini analitik təhlil süzgəcindən keçirən və onu yeni elmi faktlarla zənginləşdirən alim bədii mətn həqiqətlərini elmi həqiqətlərə çevirməklə öz metodoloji baxışlarını elmi şəkildə əsaslandırır.

Folklorşünas alim Seyfəddin Rzasoy Təyyar Salamoğlunun "Azərbaycan ədəbiyyatının müasir problemləri" (2014) adlı elmi-nəzəri və ədəbi-tənqidi məqalələr toplusuna yazdığı ön sözdə Təyyar müəllimi "ədəbiyyata milli vicdan məsələsi kimi baxan tək-tük alim"lərdən biri adlandırır, onun ədəbi xidmətlərini yüksək qiymətləndirir: "Lakin "Təyyar Salamoğlu" fakturası müasir ədəbi-nəzəri fikir üçün "qəfildən peyda olan" subyekt yox, artıq ədəbi-nəzəri məkanda yeri, rolu məlum olan, bu məkanın qurucuları səviyyəsinə qalxmış ədəbi simadır" ( Rzasoy S. Ön söz, yaxud Yaradıcı subyekt milli ədəbi məkanın intellektual paradiqması kimi Salamoğlu T. Azərbaycan ədəbiyyatının müasir problemləri. "E.Z". NPŞ, Bakı, 2014, 14). Təyyar Salamoğlu Azərbaycan ədəbi-nəzəri və estetik fikrininn çeşidli aktual problemləri ilə bağlı tədqiqatlar aparanda da, XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan uşaq poeziyasını elmi araşdırma predmetinə çevirəndə də, 1980-ci illər Azərbaycan romanının janr təkamülü və poetik özəlliklərini tədqiq edəndə də, Azərbaycan repressiya və mühacirət poeziyasına, ədəbi tənqid tariximizə dair portret-oçerklər yazanda da, ən yeni Azərbaycan ədəbiyyatı məsələlərini, o cümlədən Mir Cəlalın və İsmayıl Şıxlının bədii nəsrini müasirlik baxımından monoqrafik aspektdə araşdıranda da, nəhayət, 200-dən artıq elmi məqalənin müəllifi kimi tanınanda da "iti mühakimə, analitik təfəkkür, dil rəvanlığı, polemik ruh"a (Bəkir Nəbiyev) malik ədəbiyyatşünas alim və tədqiqatçı olduğunu sübuta yetirmişdir. Ədəbiyyatımızın ən müxtəlif dövrlərinin aktual problemlərinə özünəməxsus baxış bucağı altında ustalıqla nüfuz etmək bacarığı onun filoloji mühitdə imicini artırmış, elmi yaradıcılığına güclü maraq oyatmışdır. Filologiya üzrə elmlər doktoru, professor Yaqub Babayev haqqında danışdığımız filoloq alimin "XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri" (2021) adlı dərs vəsaitinə yazdığı "Meyar həqiqətdirsə..." başlıqlı ön sözdə Təyyar Salamoğlunun şəxsi keyfiyyətlərini və elmi fəaliyyətini yüksək dəyərləndirmişdir: "Məsuliyyət, cəfakeşlik, axtarışa həvəs, araşdırıcı təşnəliyi, ayıq müşahidə qabiliyyəti, yüksək intellekt, dərin təfəkkür, bacarıqlı təhlil ədası tədricən Təyyar müəllimi peşəkar ədəbiyyatşünasa çevirmişdir. Və nəhayət, o, Azərbaycan ədəbiyyatşünaslığının nüfuzlu, tanınmış, öz sözü, səsi və nəfəsi olan filoloq alimlərindən birinə çevrilmişdir" (Babayev Y. Meyar həqiqətdirsə... Salamoğlu T. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri. Bakı: "Elm və təhsil", 2021, 6). Həqiqət naminə etiraf etməliyik ki, Təyyar Salamoğlunun araşdırmalarında elmi mühakimə, analitik təhlil, məntiqi düşüncə, nəzəri yanaşma, təhlilə çəkilən problem və ədəbi hadisələrin dərin qatlarına, məna çalarlarına nüfuz etmək bacarığı olduqca güclüdür. O, aktual filoloji problemlə bağlı elmi sələfləri və müasiri olan filoloq alimlərlə polemikaya girəndə də elmi həqiqətləri axtarır və bu həqiqətlərə arxalanır, tutarlı, dəlilli-sübutlu arqumentlərlə, məntiqli mühakimələrlə elmi həqiqətləri üzə çıxarır. Təyyar müəllim araşdırdığı məsələ ilə bağlı filoloq alimlər və tənqidçilərlə polemika aparanda da öz konseptual mövqeyini ortaya qoyur və elmi həqiqətlərə söykənməklə nə qədər haqlı və məntiqli olduğunu sübuta yetirir. Ədəbiyyatımızın taleyini düşünən, onun mənafeyinə xidmət edən, milli ədəbi şəxsiyyətlərin haqlarını özlərinə qaytarmağa çalışan Təyyar Salamoğlu dünya millətləri içərisində öz millətinin də imzasını görmək amalı ilə yaşayan, milli ictimai şüuru oyandırmaq yolunda külüng çalan vətəndaş şairimiz Mirzə Ələkbər Sabirin də həqiqi elmi dəyərini verməyi, "sovet dövrü sabirşünaslığındakı elmi-metodoloji yanlışlıqları aradan qaldırmaq, Sabirin tənqid-gülüş hədəflərini dəqiq müəyyənləşdirmək, şairin bədii gülüşünün mahiyyətini aydınlaşdırmağı" (Zaman Əsgərli) qərarlaşdırır. Cəsarətlə deyə bilərik ki, Sabir şəxsiyyəti və yaradıcılığı son dövr Azərbaycan ədəbiyyatşünaslığında T.Salamoğlunun elmi araşdırmalarında öz həqiqi elmi qiymətini almış, dahi şairin məramı, məqsədi, milli poetik qayəsi, vətəndaşlıq qüdrəti, vətənə, millətə qırılmaz tellərlə bağlılığı öz təsdiqini tapmışdır. Sabirdə millət yanğısını görən T.Salamoğlu: "Hophopnamə"nin "əzəl mübtədası" Millət sözüdür " - yazanda nə qədər də haqlı və məntiqli görünür!Təbiidir ki, T.Salamoğlunu daha çox M.Ə.Sabir yaradıcılığında milli intibah idealı və bu idealın sovet dövrü və müstəqillik illəri Azərbaycan ədəbiyyatşünaslığında dərki və təsviri məsələsi daha çox maraqlandırırdı. Dörd məqalədən ibarət olan və 2015-ci ildə işıq üzü görən kitabını "M.Ə.Sabirin milli intibah idealı" adlandırması da təsadüfi hadisə sayıla bilməz. Bu kitabda toplanılmış məqalələr müəllifin Sabirin poetik irsinə tamamilə yeni elmi baxışlarının metodoloji və estetik ifadəsi kimi diqqətimizi çəkir." M.Ə.Sabir yaradıcılığı milli ədəbi tənqid müstəvisində" adlandırdığı birinci məqalədə T.Salamoğlu XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidinin ümumi mənzərəsini yaratmaqla, ədəbi tənqidin şairin satirik poeziyasına münasibətinə aydınlıq gətirməklə yanaşı, məfkurəcə elmi-ədəbi düşüncələri arasına az qala "Çin səddi" çəkilmiş, ideoloji yanaşmanın yanlış metodoloji baxışları ilə əks qütblərə bölünmüş, realist və romantik meyarlarla ölçülmüş, inqilabçı-demokrat və burjua millətçisi, pantürkist və panislamist, mürtəce yazıçı və jurnalistlər kimi səciyyələndirilmiş sənətkarları ideologiya və milli məfkurə baxımından birləşdirən cəhətləri dövriyyəyə buraxmışdır. Məqalə müəllifi tamamilə düzgün olaraq belə bir nəticəyə gəlir ki, "Yeni tipli ədəbiyyat uğrunda mübarizə, Azərbaycan ədəbiyyatının yol ayrıcında qalması tənqidi düşüncəni fəallaşdırmış, onun ədəbi prosesə fəal müdaxiləsini qaçılmaz etmişdi. F.Köçərli və S.Hüseyn kimi Ə.Hüseynzadə və Ə.Ağaoğlunuda, "Molla Nəsrəddin"çilər kimi "Füyuzat"çıları da ədəbi tənqidə milli ədəbiyyatın problemləri gətirmişdir" (Salamoğlu T. M.Ə.Sabirin milli intibah idealı. Bakı: "Orxan" NPM, 2015,16). Göründüyü kimi, T.Salamoğlu milli ədəbi düşüncəni oyatmaq, milli ədəbi tənqidin irəliyə doğru inkişafını sürətləndirmək amalına mollanəsrəddinçilərlə füyuzatçıların eyni cəbhədə, eyni platformada xidmət etdiklərini, bununla da milli estetik məfkurə daşıdıqlarını vurğulamaqla da real həyat həqiqətlərinin parlaq mənzərəsini yaradır. Eyni zamanda sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbi tənqidimizin XX yüzilin ilk onilliklərini əhatə edən mərhələsinin romantik və realist tənqid metodları kimi səciyyələndirilməsinə qarşı çıxmaqda da tamamilə məntiqli görünür.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Ədəbi tənqidi yaradan sənətkarların estetik baxışları ilə tənqidi düşüncə üslubunun eyniləşdirilməsinin necə acı nəticələr doğurduğunu təsdiqləyəndə də elmi həqiqətlərə əsaslanır.Digər tərəfdən ,sovet dövrü Azərbaycan ədəbi-nəzəri və estetik fikrinə baxışları çevrəsində romantik sənətkarların mütərəqqi və mürtəce dünyagörüşlü kimi dəyərləndirilməsinin , romantiklərin romantik tənqidi düşüncəyə , realistlərin isə realist tənqidi düşüncəyə malik olmasının heç bir məntiqi əsasa söykənmədiyini, bu metodoloji yanaşmanın siyasi rejimin ideoloji tələblərindən qaynaqlandığını təsdiqləyəndə də özünün həqiqətə və məntiqi əsaslara söykənən mövqeyini ortaya qoyur. Ədəbiyyat tariximizdə mütərəqqi romantizmin nümayəndələri prosesə nüfuzun dərinliyi , söylənilən mülahizələrin obyektivliyi və sərrastlığı ilə daha ciddi maraq " doğuran "Sabir" məqaləsinin xalqımızın milli şüurunun oyanmasında daha önəmli olduğunu diqqətə çatdıran T.Salamoğlu görkəmli ədəbiyyatşünas və tənqidçi Firidun bəy Köçərlinin( 1863-1920) də Sabir haqqında mülahizələrinə öz münasibətini bildirmişdir.Professor Təyyar Salamoğlunun sabirşünaslığa gətirdiyi yeniliklərdən ən ümdəsi milli intibah idealına xidmət edən şairin "ictimai aşağılar"a və "ictimai yuxarılar"a münasibəti ilə bağlıdır. Məlumdur ki, sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında tənqidi realizmin obrazlar sistemi tipoloji baxımdan "ictimai aşağılar"a və "ictimai yuxarılar"a bölünmüş, "ictimai aşağılar" dedikdə geniş xalq kütləsi, "ictimai yuxarılar"dedikdə isə cəmiyyətin yuxarı təbəqələri: xanlar, bəylər , mülkədarlar jua münasibətləri zəminində meydana çıxan sosial təbəqə və zümrələri milli birlik uğrunda mübarizəyə səsləyir"(Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında ). Bakı:"Orxan" NPM, 2018, 130). Tədqiqatçı onu da xatırladır ki, "milli birlik uğrunda mübarizənin taktika və strategiyasını dəqiq müəyyənləşdirən" şair milli birliyə milli şüuru oyatmaqla nail olmağın mümkünlüyünə bütün varlığı ilə inanır, millətin ruhunu diriltməyi, düşüncəsini tərbiyə etməyi yayımlayırdı. Hələ görkəmli türk alimi İsmayıl Hikmət 1924-cü ildə çap etdirdiyi "Sabir mürəbbi" məqaləsində Sabiri məhz tərbiyəçi şair kimi yüksək dəyərləndirmişdi. Professor Təyyar Salamoğlu da "milli şüuru oyatmaq, vətəndaş birliyinə və düşüncəsinə nail olmaq " uğrunda şairin apardığı mübarizəyə milli tərbiyəda şamildir. T.Salamoğlu Sabir satirasının dialoji-polifonik məzmunu ilə bağlı elmi arqumentlərini diqqətə çatdıraraq yazır: "Sabir satirasında inkar pafosu ilə təsdiq pafosu bir-birini tamamlayaraq, onun dialoji-polifonik məzmununu önə çıxarır. Bu satira heç də həmişə eybəcərliyi inkar məzmunu ilə özünəməxsusluq qazanmır. Burada cəmiyyətdə gedən proseslər mürəkkəbliyi, ziddiyyətləri, müsbət və mənfi tərəfləri ilə əks olunur. Sabir satirası maarifçi dünyagörüşünün ifadəsi olaraq öz üzərinə milli şüurun formalaşdırılması funksiyasını götürür. Bu funksiya onun cəmiyyətin bütün təbəqə və zümrələrinin həyatını bədii təhlil predmetinə çevirməsini qaçılmaz edir"(Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:"Orxan" NPM, 2018, 144). Bu dəyərləndirmə Sabir satirasının

# M.Ə.Sabir müstəqillik dövrünün ədəbi-nəzəri fikrində

## (Professor Təyyar Salamoğlunun tədqiqatları əsasında)

kimi xarakterizə olunan Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid, Abdulla Şaiq simalı ədəbi şəxsiyyətlərin yaradıcılığının yalnız romantik tənqidi düşüncənin məhsulu olması konsepsiyasına qarşı çıxmaqla da nə qədər güclü məntiqi təfəkkür sahibi olduğunu, analitik təhlillərinin elmi reallıqlarla səsləşdiyini nümayiş etdirir. T.Salamoğlu adı çəkilən romantiklərin həm realist yazıçılar olduğunu, Sabirin yaradıcılığına realist və estetik meyarlarla dəyər verdiklərini, milli ədəbi tənqidin Sabir yaradıcılığı müstəvisində formalaşdığını sübuta yetirir . Təyyar müəllimin çağdaş milli ədəbiyyatşünaslığa gətirdiyi elmi yeniliklərdən biri də bundan ibarətdir ki, o, romantizmin nəzəriyyəçisi olan Əli bəy Hüseynzadə ilə M.Ə.Sabirin ədəbi əlaqələri və estetik baxışlarındakı bəzi uyğunluqlara ilk dəfə aydınlıq gətirmişdir. Tədqiqatçı alim Sabir haqqında ilk mətbu məqalənin müəllifi olan Əli bəy Hüseynzadənin estetik baxışlarının geniş və əhatəli olduğunu, "Ə.Hüseynzadənin estetik konsepsiyasında dünyanın həm romantik, həm realist dərkinə eyni dərəcədə yer" ayrıldığını bildirir. "Ermәni vətəndaşlarımıza tövsiyə və ixtaratımız", "Molla Nəsrəddin" və "Dəbistan", "Tolstoyluq nədir" məqalələrinin adını çəkməklə Ə.Hüseynzadənin təkcə romantik deyil, eyni zamanda realist bir tənqidçi olmasını da təsdiqləyir. Filoloq alim Əli bəy Hüseynzadənin sənətə estetik baxışlarını düzgün qiymətləndirərək yazır: "Ə.Hüseyzadə realizmi, ilk növbədə, ictimai həyat hadisələrinə nüfuz və təsir gücünə görə dəyərləndirir. O, Tolstoy, Qoqol, Dikkens kimi dünya şöhrətli realistləri də, Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, S.M.Qənizadə və b. milli sənətkarların yaradıcılığını da bu kontekstdə dəyərləndirir". (Salamoğlu T. M.Ə.Sabirin milli intibah idealı. Bakı:"Orxan" NPM, 2015,20). T.Salamoğlunun dünya şöhrətli Azərbaycan alimi və tənqidçisi Əli bəy Hüseynzadə yaradıcılığına və onun Sabir poeziyasına mütərəqqi münasibətinə həqiqi sənətin estetik meyarları ilə yanaşması milli ədəbi-tənqidi düşüncəyə bəslədiyi yüksək vətəndaşlıq qayəsindən, bu düşüncəni obyektiv dəyərləndirmək amalından qaynaqlanır. A.Səhhətin "nəzəri dolğunluğu, ədəbi və başqaları nəzərdə tutulmuşdur. Cəmiyyətə sinfi mövqedən bu cür yanaşılması Sabir poeziyasında özünü doğrultmamış, şairin milli və estetik qayəsinin təhrifinə gətirib çıxarmışdır. Sabirin millətə, millətin bütün təbəqələrinə münasibətinə aydınlıq gətirməyə çalışan alim Sabir poeziyasının bədii mətn həqiqətlərinə əsaslanaraq elmi həqiqətləri aşkara çıxarır. Təyyar müəllim "Azərbaycan tənqidi realizminin estetikası" (2018) monoqrafiyasında milli tənqidi realizmin estetik xüsusiyyətlərini C.Məmmədquluzadənin bədii nəsri və M.Ə.Sabirin yaradıcılığı əsasında aydınlaşdırır. Eyni zamanda Sabir satirasında "ictimai yuxarılar"a münasibət kontekstində şairin estetik baxışlarını aydınlaşdırır, onun tənqid hədəflərinə münasibətini obyektiv müəyyənləşdirir. Akademik İsa Həbibbəyli "Azərbaycan tənqidi realizminin estetikası" monoqrafiyasına yazdığı "Tənqidi realizmin estetikasına realist elmi baxış" adlı ön sözdə T.Salamoğlunun Sabirin satiralarındakı "ictimai yuxarılar"a münasibətini açıqlayır: "T.Salamoğlu "Sabir satirasında "ictimai yuxarılar"ın mövqeyini obyektiv elmi meyarlarla tədqiq edib dəyərləndirir. Sabirin xalqın ictimai aşağılara və yuxarılara bölünməsinin şairi olmayıb, bütövlükdə və tam halda xalqın taleyinin vətəndaş müdafiəçisi olduğu yeni elmi mövqedən şərh edilmişdir. Milli şüuru oyatmaq, vətəndaş birliyinə nail olmaq Sabirin sənət kredosu, sənət konsepsiyası idi; - fikri də elmi obyektiv qənaətdir." (Həbibbəyli İ. Tənqidi realizmin estetikasına realist elmi baxış Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:-"Orxan" NPM, 2018, 7).

T.Salamoğlu Sabir satirasının sosial -fəlsəfi və estetik mahiyyətini aydınlaşdırmaq məqsədilə öncə şairin "millət" anlayışına münasibətinə , bu anlayışın məna tutumuna aydınlıq gətirməyi , daha sonra şairin tənqidi və maarifçi realizm metodları çərçivəsində estetik amalını və vətəndaş mövqeyini çözələməyi qərarlaşdırır. Sabir satiralarının bədii mətn materialları əsasında ictimai qayəsini açıqlayaraq yazır: "Ümumiyyətlə, Sabirin estetik düşüncəsində ölümə məhkum olan milli-sosial təbəqə yoxdur. Sabir yenicə yaranmaqda olan burdən başlamasını vurğulamaqla Sabirin təkcə demokratik dünyagörüşlü tənqidi realist sənətkar deyil, həm də maarifçi realist şair olduğunu diqqətə çatdırır. Tədqiqatçı sözünə davam edərək yazır: "Şair öz sənət kredosu uğrunda mübarizə və mücadiləyə "işin ibtidası"ndan - tərbiyədən başlamışdır. Sabirin tərbiyə məktəbində sinif və yaxud təbəqə, zümrə ayrı-seçkiliyi yox idi. Onun əsas tərbiyə üsulu tənqid idi. Böyük sələfi Axundzadə kimi o da "istehza, gülgü və məsxərə yolu ilə "yazılan əsərin tərbiyəvi-idraki gücünə inanırdı. Milli birliyə, oyanışa, tərəqqiyə mane olan hər cür qüsurlara, özünü dərk edən vətəndaş kimi formalaşmağa, vətənin və millətin taleyi ilə bağlı düşünməyə mane olan hər cür əxlaqi və mənəvi naqisliyə qarşı kəskin tənqidi münasibət Sabir satirasının həqiqi milli məzmununu yaradır" (Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı: "Orxan" NPM, 2018, 130). Deməli, Sabirin tənqidi realist üslubunun mayasında maarifçi realizm estetikası, bu estetikanın əsasında isə şairin tərbiyə məktəbi dayanır. Gözlərimizin önündə millətimizin qeyrətini çəkən, onu sivilizasiyalı dünya xalqlarının səviyyəsinə yüksəltməyə çalışan vətəndaş bir şairimizin, "dəryada duran qocaman bir dağa bənzəyən" millət xadimimizin əzəmətli heykəli canlanır. Onu da qeyd etmək yerinə düşər ki, T.Salamoğlunun məntiqli və tutarlı analitik təhlilləri bizi bu qənaətə gətirir ki, Sabir satiralarının obrazlar aləmini ifşa yox ,tənqid hədəfinə çevirmiş, eyni bir millətin övladı olan kapitalistlə fəhlə, mülkədarla kəndli arasında milli fərq qoymamış, hər iki təbəqə nümayəndələrinin şüurunu oyatmağa çalışmış, onları vətənin taleyini düşünməyə, milli birlik, sosial ədalət uğrunda mübarizəyə səsləməklə "vətəndaşlıq düşüncəsi uğrunda mübarizə" aparmışdır. T.Salamoğlu Azərbaycan tənqidi realizminin estetikası ilə bağlı araşdırmalar apararkən Sabir satirasının dialoji-polifonik məzmununa da aydınlıq gətirmiş, yeni elmi-metodoloji baxışları ilə sabirşünaslığı zənginləşdirmişdir.Tədqiqatçının qənaətinə görə, inkar pafosu tənqidi realizmi səciyyələndirən başlıca amillərdən biri olduğu üçün Sabirin satira yaradıcılığına təsdiq və inkar pafosunu zərgər dəqiqliyi ilə ifadə edir. Sabir satiralarının bədii mətn həqiqətləri T.Salamoğlunu bu nəticəyə gətirir ki, Sabir millətin şüurunda inqilab yaratmağı, millətə öz milli mənliyini anlatmağı, sosial düşüncəni oyatmağı, müsəlman xalqlarını milli geriliklən, ətalətdən və nadanlıqdan qurtarmağı qarşısına məqsəd qoymuş və bu amal uğrunda bütün yaradıcılığı boyu mübarizə aparmışdı. Tədqiqatçı alim onu da doğru müəyyənləşdirir ki, Sabir milli gerilikdən çıxış yolunu elm və təhsilə yiyələnməkdə, vətən övladını savadlandırmaqda, uşaqları məktəbə rəğbətləndirib onlara dünyəvi təhsil verməkdə görürdü. Deməli, Sabir məktəb uğrunda mübarizəni xalqı savadlandırmaq, cəhalətdən qurtarmaq, azadlığa çıxarmaq, azad vətəndaş cəmiyyəti yaratmaq uğrunda mübarizənin çıxış yolu kimi mənalandırırdı. Sabir cəmiyyətin xoşbəxt gələcəyi olan uşaqların da təlim və tərbiyə almasına, layiqli vətəndaşlar kimi yetişməsinə böyük önəm verirdi. Sabirin "Ata nəsihəti" satirasını analitik təhlil prizmasından keçirən müəllif onu da vurğulayır ki, cəmiyyətdə sosial-siyasi yeniliklərin genişlənməsi, "atalar"ın qaranlıq dünyasından "oğullar"ın birmənalı şəkildə sıyrılıb çıxmağa çalışması, milli intibah hərəkatına qoşulması Sabir satirasında inkar pafosu ilə təsdiq pafosunun bir-birini tamamlamasından soraq verir, hər ikisinin bu sənətin üzvi tərkib hissəsi kimi meydana çıxıb, onun həyati gücünü təsdiq etməsinin əlamətdar cəhətləri kimi meydana çıxır" (Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:"Orxan" NPM, 2018, 151). Müəllif onu da xatırladır ki, Sabir satiralarının bir qismi satirik tipin monoloqu biçimində yaranmış, ictimai düşüncəsinin yoxsulluğu səbəbindən bu obraz şairin tənqid hədəfinə çevrilmişdir. Digər tərəfdən, "əğniya"nın (dövlətlinin) , yaxud başqa satirik obrazın psixoloji portretini ustalıqla yaradan şair onun mənəvi aləminə güzgü tutur və bu güzgüdə satirik tipin iç dünyası, daxili (mənəvi) aləmi açıq -aydın görünür.

*(Davamı 13-cü səhifədə)*

# M.Ə.Sabir müstəqillik dövrünün ədəbi-nəzəri fikrində

## *(Professor Təyyar Salamoğlunun tədqiqatları əsasında)*

*(Əvvəli 9-cu səhifədə)*

Sabir satirik tipin şüurunu oyatmaq, onu cəmiyyət üçün layiqli vətəndaşa çevirmək, vətənin və millətin təəssübünü çəkən bir insan səviyyəsinə yüksəltmək amalını əsas fəaliyyət məqsədi kimi qarşısına qoymuşdu. Sabir millətin görən gözü, düşünən beyni idisə, "Hophopnamə" Azərbaycan cəmiyyətinin sosial həyatının güzgüsü, "millət" sözü isə, T.Salamoğlunun düzgün müşahidə etdiyi kimi, "Hophopnamə"nin "əzəl mübtədası"dır! Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında olduğu kimi, mühacirət ədəbiyyatşünaslığında da Sabirin yaradıcılığı ilə əlaqədar olaraq xeyli araşdırmalar aparılmış, elmi tədqiqat əsərləri yazılmışdır. Mühacirət həyatı keçirən tədqiqatçılar Sabirin Azərbaycan ədəbiyyatı tarixində mövqeyini və yerini müəyyənləşdirməyə çalışmış, şairin estetik idealını aydınlaşdırarkən "Hophopnamə"nin bədii materiallarına əsaslanmışdır. Lakin onların Sabirlə bağlı elmi araşdırmaları bizim milli ədəbiyyatşünaslıqda kifayət qədər öyrənilməmiş və həqiqi qiymətini almamışdır. Bunu nəzərə alan T.Salamoğlu "Mühacirət ədəbiyyatşünaslığı Sabirə metodoloji münasibət kontektsində" məqaləsində mühacirət ədəbiyyatşünaslığının Sabirin poetik irsinə münasibətini aydınlaşdırmağı qarşısına məqsəd qoymuş, Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli ədəbi simalarından biri olan Əbdülvahab Yurdsevərin "Sabirin Azərbaycan ədəbiyyatşünaslığında yeri" (Bakı, 2014) monoqrafiyasında Sabir haqqında söylədiyi mülahizələri bütövlüklə mühacirət ədəbiyyatşünaslığına şamil etməyin mümkünlüyü qənaətinə gəlmişdir. Alim bu fikirdədir ki, Sabir yaradıcılığı, xüsusilə satiraları mühacirət ədəbiyyatşünaslığında elmi-nəzəri və metodoloji cəhətdən düzgün anlaşılmış və obyektiv dəyərləndirilmişdir. Bu ədəbiyyat sosial və ideoloji təzyiqlərdən tamamilə uzaq olduğundan "Hophopnamə"nin materiallarından məqsədyönlü faydalanaraq Sabirin estetik idealına elmi meyarlarla dəyər verir. Sabiri mənsub olduğu millətin taleyi, xoşbəxt gələcəyi düşündürdüyü kimi, Azərbaycan mühacir filoloqlarını da "Sabir və millət" problemi daha çox düşündürür. Ona görə də onlar bu problemi önə çıxarır və həqiqi qiymətini verməyə çalışırlar. T.Salamoğlunun bir mülahizəsi də diqqəti çəkir: "Mühacirət ədəbiyyatşünaslığında Sabirlə bağlı aparılan tədqiqatların metodoloji əhəmiyyəti həm də onunla müəyyənləşir ki, burada "xalq" anlayışı "millilik" estetik kateqoriyasının ifadə vasitəsi kimi çıxış edir "(Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:"Orxan" NPM, 2018, 175). Buradan aydın görünür ki, tədqiqatçı alim mühacirət ədəbiyyatşünaslığında Sabirin poetik irsinə elmi-metodoloji baxımdan düzgün yanaşıldığını dərindən duymuş, bununla bağlı elmi mülahizələrini dövriyyəyə buraxaraq yazmışdır: "Sabirin millətin bütün təbəqələrinin" mənafeyi uğrunda mübariz kimi dərk olunması, onun millətin bütün təbəqələri və əslində milli varlıq uğrunda mübarizəsinin geniş mənada müstəmləkə rejiminə qarşı çevirilməsi, mahiyyətcə isə bunun milli varlığın özünüdərk və özgürlük savaşı olması mühacirət ədəbiyyatşünaslığından qırmızı bir xətt kimi keçir" (Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:"Orxan" NPM, 2018, 176). Bu dəyərləndirmə onu göstərir ki, başda Əbdülvahab Yurdsevər olmaqla, Azərbaycan mühacir ədəbiyyatşünasları Sabir satiralarının bədii mətn həqiqətlərini düzgün anlamış, şairin millətin bütün zümrə və təbəqələrinin azadlığı uğrunda mübarizə apardığını, beləliklə, milli düşüncəli vətəndaş şair olduğunu öz əsərlərində təsdiqləmişlər. T.Salamoğlu mühacir sənətkarların Sabir poeziyasına münasibətdə estetik baxışlarını düzgün müəyyənləşdirmiş, metodoloji yönümdə həqiqi elmi qiymətini vermişdir. Eyni zamanda "XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri" (2021) adlı sanballı dərs vəsaitində tənqidi realizmin Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir, maarifçi realizmin Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, İbrahim bəy Musabəyov və Sultan Məcid Qənizadə, romantizmin Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad və Ümgülsüm Sadıqzadə, ədəbi tənqidin Firudun bəy Köçərli, Seyid Hüseyn, Əli bəy Hüseynzadə kimi böyük ədəbi simalarının yaradıcılığını müasirlik baxımından analitik təhlildən keçirmiş, bədii mətn həqiqətləri əsasında elmi həqiqətləri üzə çıxarmış, qabaqcıl fikirlər irəli sürmüş, ədəbiyyatşünaslığımızı yeni elmi faktlarla zənginləşdirmişdir.